**UOT 781**

**Mehriban Qasımova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: qasımovamehriban@gmail.com**

# AZƏRBAYCANDA DİRİJORLUQ SƏNƏTİNİN YARANMASININ TARİXİ-MƏDƏNİ KONTEKSTİ

**Xülasə:** Azərbaycanda dirijorluq sənəti XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Məqalədə keçən əsrin ilk onilliklərinin musiqi mədəniyyətinə nəzər salınır, Azərbaycanda dirijorluq sənətinin inkişaf istiqamətləri işıqlandırılır. Qeyd olunur ki, Azərbaycanda dirijorluq sənətinin inkişafında Ü. Hacıbəylinin müstəsna xidmətləri olmuşdur.

**Açar sözlər**: dirijorluq sənəti, Ü. Hacıbəyli, M. Maqomayev, xor kapellası, xalq çalğı alətləri orkestri, tarixi-mədəni kontekst

Azərbaycanda dirijorluq sənəti XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Məlum olduğu kimi, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın mədəni həyatında özünü göstərən yüksəliş sayəsində Azərbaycan musiqisində köklü dəyişikliklər meydana gəlmişdir. Bu dövrdə uzun əsrlər boyu şifahi ənənələr əsasında inkişaf etmiş Azərbaycan musiqi mədəniyyətinə Avropa musiqi ifaçılığı formalarının, yazılı ənənələrin daxil olması ilə milli bəstəkarlıq məktəbinin, milli ifaçılıq sahələrinin, musiqi təhsilinin bünövrəsi qoyulmuşdur. Azərbaycanda dirijorluq sənəti də məhz bu dövrdən inkişaf etmişdir. İlk dirijorlar qeyri-azərbaycanlılar, Bakıya qastrola gələn və burada fəaliyyət göstərən opera və simfonik orkestr dirijorları, o cümlədən, xor dirijorları olmuşdur. Minirə Dilbazinin "Bakının musiqi həyatı" monoqrafiyasında XIX əsrin ikinci yarısında – XX əsrin əvvəllərində Azərbaycanda musiqi mədəniyyətinin ümumi mənzərəsi ilə tanış oluruq. Müəllif musiqi həyatının səhifələrini vərəqləyərək, qorunub saxlanılmış afişalar əsasında Bakıya qastrola gələn kollektivlər – opera truppaları, simfonik orkestrlər, dirijorlar və solistlər, onların proqramları haqqında məlumatları oxucuya çatdırır.

Məsələn, 1889-cu ildə Bakıda ilk dəfə Tiflis opera truppasının qastrolları olmuşdur ki, bu truppanın repertuarına J.Bizenin, C.Verdinin, C.Rossininin, M.Qlinkanın, P.Çaykovskinin və başqa bəstəkarların operaları daxil idi. Həmin truppaya solistlərlə yanaşı, 30 nəfərlik orkestr və 30 nəfərdən ibarət xor daxil idi. Tamaşalar dirijor S.P.Barbininin rəhbərliyi altında oynanılmışdır (21, s.161).

1889-1917-ci illər ərzində Tiflis opera truppası ilə yanaşı, italyan, rus və başqa opera truppalarının Bakıda dəfələrlə qastrolları olmuşdur. Bu zaman afişalarda S.P.Barbini, B.S.Plotnikov, İ.A.Truffi, A.P.Aslanov, M.M.Qolin- kin, L.P.Şteynberq, Y.A.Pozen, C.Qonsalets, İ.P.Paliyev, N.A.Miklaşevskiy, A.M.Pazovskiy, A.A.Eyxenvald, L.B.Qinzburq, E.Metter, A.V.Pavlov-Arbenin, Y.M.Slavinskiy, M.M.Fiyevskiy, A.İ.Xoroşanskiy, V.P.Vasilyev, A.Doljitskiy və başqa opera dirijorlarının adı qeyd olunmuşdur.

Simfonik konsertlərin afişaları da maraq doğurur. Həmin konsertlərin repertuarı Avropa və rus bəstəkarlarının əsərlərindən ibarət olmuşdur. Yuxarıda adı çəkilən opera dirijorlarından bir çoxu həm də simfonik konsertlərdə dirijorluq etmişlər. Əsasən M.İ.Çernyaxovski, İ.A.Truffi, A.P.Aslanov, A.V.Pavlov-Arbenin, S.A.Samosud, F.Parizek, V.V.Şpaçek, D.S.Slavinskiy kimi dirijorların adı afişalarda tez-tez görünürdü və bu adlar bakılı tamaşaçılara yaxşı tanış idi.

Xarici dirijorların Bakıdakı fəaliyyəti təkcə bununla bitmirdi. Belə ki, bir sıra dirijorların rəhbərliyi altında simfonik orkestr 1908-ci ildən sonra yaranan Azərbaycan operalarının və operettalarının tamaşalarını da müşayiət etmişlər. Ümumiyyətlə, bir sıra xarici musiqiçilər – Çernyaxovski, Slavinski, Şefferlinq və başqaları Azərbaycanın mədəniyyət quruculuğunda fəal iştirak etmişlər.

1920-ci illərdə Bakıda birləşmiş Azərbaycan Dövlət Teatrı yaradıldı ki, bunun da əsasını Azərbaycan və rus teatr truppaları təşkil edirdi. Bu teatrda opera, operetta və dramatik tamaşalar səhnəyə qoyulurdu. 1925-ci ildə isə onun opera kollektivi əsasında Opera teatrı yaradıldı. Əlbəttə ki, bütün bu kollektivlərin təşkili musiqiçi kadrların – dirijorların və müxtəlif musiqi alətləri ifaçılarının yetişməsində də bir stimul olmuşdur.

XX əsrdə musiqi mədəniyyəti tarixinin nəzərdən keçirilməsi, Azərbaycanda dirijorluq sənətinin inkişaf istiqamətləri ilə bağlı əsaslı təsəvvür yaradır. Bu böyük və mürəkkəb tarixi dövrdə Azərbaycan mədəniyyətinin ən parlaq simalarından biri olan Üzeyir Hacıbəylinin şəxsiyyəti, onun musiqi mədəniyyətinin, demək olar ki, bütün sahələrini əhatə edən, eləcə də hər bir sahəsinin inkişafına təkan verən yaradıcı fəaliyyəti önə çıxır. Məhz Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində milli bəstəkarlıq və milli ifaçılıq məktəbinin təşəkkülünə və inkişafına təkan vermiş, musiqi təhsilinin bünövrəsi qoyulmuş, musiqi kollektivləri yaradılmışdır ki, bu da Azərbaycan musiqisində yeni səhifə açmışdır. Təsadüfi deyil ki, Üzeyir Hacıbəylinin yaradıcılığından danışarkən, onu dahi bəstəkar, pedaqoq, dramaturq, publisist, musiqişünas alim, ictimai xadim kimi səciyyələndiririk. Bizcə, bu sırada onu həmçinin, bir dirijor kimi də qeyd etmək zəruridir. Azərbaycanda musiqi kollektivlərinin – musiqili teatrın, simfonik orkestrin, xor kapellasının, xalq çalğı alətləri orkestrinin bünövrəsinin məhz Üzeyir Hacıbəyli tərəfindən qoyulması, onun özünün bu kollektivlərdə təşkilati

məsələlərlə yanaşı, bədii rəhbər və dirijor kimi fəaliyyəti bunu deməyə əsas verir.

Üzeyir bəyin dirijorluq fəaliyyəti onun yaradıcılığına həsr olunan tədqiqatlarda musiqişünaslar tərəfindən qabardılmasa da, Ü.Hacıbəylinin həm opera teatrında öz əsərlərini idarə etməsi, həm xor kollektivinin, həm də xalq çalğı alətləri orkestrinin bədii rəhbəri olması onun dirijor kimi fəaliyyətindən danışmağa imkan verir.

1908-ci ildə ilk Azərbaycan milli operası - Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması Azərbaycan musiqisində keyfiyyətcə yeni və mühüm bir sıçrayış yaratdı – musiqi yaradıcılığının şifahi ənənələrdən müasir professional musiqinin mürəkkəb formalarına keçid mərhələsi oldu. Eyni zamanda, bu opera Azərbaycanda professional bəstəkarlıq sənətinin, milli muğam opera- sı janrının inkişafının başlanğıcını qoymaqla, Avropa musiqisi xüsusiyyətlərilə sintezində ilk təcrübə (130), Azərbaycan milli opera sənətinin yüksəlməsi üçün möhkəm bünövrə kimi qiymətləndirilir. Qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması ilə musiqi ifaçılığının digər sahələri ilə yanaşı, dirijorluq sənətinin də inkişaf etdirilməsi Azərbaycan musiqisi üçün bir tələbata çevrildi.

"Leyli və Məcnun" operasının ilk tamaşasının afişasındakı yazılar diqqəti cəlb edir. Burada ilk müsəlman operasının müəlliflərin rəhbərliyi altında "Nicat" cəmiyyətinin opera artistlərinin və həvəskarların iştirakı ilə oynanılacağı qeyd olunur. Tamaşanı Qurbanın, yəni görkəmli tarzən Qurban Primovun rəhbərliyi ilə Şərq orkestrinin müşayiət edəcəyi göstərilir (21, s.227).

Musiqi tarixinə aid tədqiqatlardan, eləcə də Ü.Hacıbəylinin həyat və yaradıcılıq yoluna həsr olunmuş elmi əsərlərdən (130) məlumdur ki, "Leyli və Məcnun"un ilk tamaşasında dirijor qismində yazıçı və musiqi bilicisi, Azərbaycanda musiqili teatrın yaranmasında mühüm xidmətləri olan Əbdürrəhim bəy Haqverdiyev çıxış etmişdir. Qurban Primov operanın muğam hissələrini tarda müşayiət etmişdir. Orkestr isə Üzeyir bəyin seminariya yoldaşlarından ibarət olmuşdur. İlk tamaşada Üzeyir bəy özü də orkestrdə skripkada çalmışdır.

Afişada qeyd olunan "Şərq orkestri" tamaşa günü yığılmamışdır, çünki operanın hazırlığına cəlb olunmuş tarzənlər premyera günü çalmaqdan boyun qaçırmış və tamaşada yalnız Qurban Primov qalmışdır. Bu haqda Ü.Hacıbəylinin ""Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" adlanan məqaləsində müfəssəl məlumat verilir. Lakin Ü.Hacıbəylinin digər bir məqaləsində "Leyli və Məcnun"un ilk tamaşasında tarzən Şirin Axundovun da iştirak etdiyi göstərilmişdir. Bu da çox maraqlı faktdır. Lakin bir və ya iki tarzənin iştirakı "Şərq orkestri" anlayışına uyğun gəlmədiyi üçün sonrakı afişalarda istər "Leyli və Məcnun"da, istərsə də digər Azərbaycan opera və operettalarında bu ifadədən artıq istifadə olunmur. O dövrdə Azərbaycan opera və operetta tamaşalarını müşayiət etmək üçün Bakıda

fəaliyyət göstərən dirijorların – Slavinski, Çernyaxovski və b. rəhbərliyi ilə simfonik orkestrlər dəvət olunmağa başlayır. Bu haqda həmin dövrlərin afişalarından və mətbuat səhifələrindən kifayət qədər məlumat almaq mümkündür.

Lakin Azərbaycan operalarının səhnəyə qoyulması və tamaşaların sayının artması, xalq arasında opera və operettalara marağın yüksəlməsi artıq musiqi ifaçılığına olan tələblərin də dəyişməsinə gətirib çıxarırdı. Bakıda daimi opera truppasının və simfonik orkestrin olmaması, bu sahədə əsasən qastrola gələn dirijorların və musiqi kollektivlərinin qüvvəsindən istifadə olunması vəziyyəti çətinləşdirirdi.

"Leyli və Məcnun"un sonrakı tamaşalarından başlayaraq, Üzeyir Hacıbəyli özü də operalara dirijorluq edirdi. Bu baxımdan, onun öz əsərlərinin tamaşalarını hazırlaması, ifaçılarla məşqlər aparması, musiqi partiyalarını onlara öyrətməsi, yəni artıq musiqi rəhbəri kimi fəaliyyəti onda dirijorluq bacarığını üzə çıxarmışdı.

Ü.Hacıbəylinin opera tamaşaları ilə yanaşı, simfonik orkestrə dirijorluq etməsi haqqında məlumata da o dövrün afişalarında rast gəlirik. Belə ki, 1911-ci ildə "Nicat" xeyriyyə cəmiyyətinin təşkil etdiyi böyük Azərbaycan dramaturqu Mirzə Fətəli Axundovun 100 illik yubileyi ilə əlaqədar tamaşa axşamının proqramında göstərilir ki, "antraktlarda müsəlman bəstəkarı Üzeyir Hacıbəyovun rəhbərliyi altında simfonik orkestr çalacaq" (21, s.230).

1914-cü ildən başlayaraq, "Hacıbəyov qardaşları müdiriyyəti" kimi tanınmış "Hacıbəyov qardaşlarının opera-operetta artistləri dəstəsi" müstəqil truppa kimi fəaliyyət göstərdiyi illərdə tamaşaya qoyulan opera və operettaların musiqi rəhbəri və dirijoru kimi Üzeyir bəy çox çalışmışdır.

Hətta 1918-1920-ci illərdə - Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Ü.Hacıbəyli həm rəsmi dövlət orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuş, həm ölkənin musiqi həyatında geniş fəaliyyət göstərmişdir. Həmin illərdə Ü.Hacıbəylinin, M.Maqomayevin, Z.Hacıbəyovun əsərləri tamaşaya qoyulmaqla yanaşı, konsertlərdə onların yazdıqları xor və simfonik orkestr üçün əsərlər də səsləndirilirdi. Məsələn, Ü.Hacıbəylinin bu dövrdə yazdığı "Milli marş"ın ifası ilə bağlı bəstəkarın özünün 4 yanvar 1918-ci il tarixli "Açıq söz" qəzetində çıxmış məlumatında deyilir: "Həmin marş bu şənbə günü Tağıyevin teatrosunda "O olmasın, bu olsun" oynundan qabaq orkestr ilə çalınıb ümumi artistlər tərəfindən oxunacaqdır" (61, s.21).

Qəzet məqalələrində daha çox Ü.Hacıbəyli bəstəkar kimi, M.Maqomayev isə dirijor kimi göstərilir. Hətta "Azərbaycan" qəzetinin 5 mart 1919-cu il tarixli sayında "Şah İsmayıl" operasının ilk tamaşası münasibətilə yazılmış məqalədə Müslüm bəy Maqomayev "Hacıbəyov qardaşlarının müdiriyyətinin dirijoru, musiqişünas" kimi təqdim olunur, yəni onun bəstəkarlıq fəaliyyəti bir qədər gec baş-

ladığından, o, ilk növbədə dirijor kimi tanınmışdı.

Bununla belə, haqqında danışdığımız dövrdə Ü.Hacıbəylinin və M.Maqomayevin fəaliyyət dairəsi geniş olmuş, onlar musiqi mədəniyyətində teatr tamaşalarının təşkilatçısı, bəstəkar, dirijor, musiqi xadimi kimi əhəmiyyətli rol oynamışlar. Bütün bunlar bir daha dirijorluğun Ü.Hacıbəylinin musiqi sahəsindəki fəaliyyətinin ayrılmaz bir hissəsi olduğunu təsdiq edir və sonradan onun təşkil etdiyi xorda, xalq çalğı alətləri orkestrində fəaliyyətinin əsas istiqamətinə çevrilir.

Qeyd etmək lazımdır ki, Müslüm Maqomayevin (1885-1937) dirijor kimi fəaliyyəti 1912-ci ildən başlamışdır. M.Maqomayev 1912-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Opera və Balet Teatrında dirijor vəzifəsində çalışmış, opera tamaşalarına dirijorluq etmişdir. O, ilkin olaraq, Ü.Hacıbəylinin opera və operettalarına dirijorluq etsə də, sonradan bu siyahıya onun öz əsərləri – “Şah İsmayıl” (1916) və “Nərgiz” (1935) operaları da əlavə olunmuşdur. Qeyd etmək lazımdır ki, o, operadan başqa, həmçinin, orkestr üçün “Azərbaycan çöllərində” rapsodiyasının, “Ceyranı” rəqsinin, “Radio marşı”nın, “Şəlalə” simfonik pyesinin və s. əsərlərin müəllifi olmuşdur. Bu əsərlərin konsertlərdə səsləndirilməsi zamanı da o, orkestrə dirijorluq etmişdir. 1920-1930-cu illərdə isə Azərbaycan Radiosunun bədii rəhbəri kimi fəaliyyəti, xalq çalğı alətləri orkestrinin təşkili sahəsindəki səyləri onun Azərbaycanda dirijorluq sənətinin inkişafında mühüm rolu olduğunu bir daha təsdiq edir.

Burada bir məsələyə xüsusi olaraq diqqəti yönəltmək istərdik. Adətən, elmi ədəbiyyatda ilk Azərbaycan dirijoru kimi M.Maqomayevin adı çəkilir. Biz bu fikrə etiraz etməyərək, yalnız demək istərdik ki, Müslüm Maqomayev Üzeyir Hacıbəylinin tövsiyəsi ilə dirijor pultu arxasına keçərək, bu sənətlə mütəmadi məşğul olmağa başlamışdır. Buna görə də digər sahələrdə olduğu kimi, dirijorluq sahəsində də Üzeyir Hacıbəylinin simasında birincilik missiyası önə çəkilməlidir. Üzeyir Hacıbəylinin opera tamaşalarına dirijorluğu əsasən öz əsərlərini, xüsusən də ilk tamaşaları idarə etməsi ilə bağlıdır. Muğam operaları və operettalarla yanaşı, o, yaradıcılığının şah əsəri sayılan klassik “Koroğlu” operasının ilk tamaşasında da özü dirijorluq etmişdir. Bu da onun opera dirijorluğu sahəsindəki fəaliyyəti ilə yanaşı, xor və xalq çalğı alətləri orkestrinə dirijorluğunu da əsaslandırmağa imkan verir.

1920-ci illər Azərbaycan musiqi mədəniyyəti tarixinə quruculuq illəri kimi daxil olaraq, musiqi mədəniyyətində bütün sahələr üzrə yeni mərhələnin başlanğıcı oldu. Xüsusilə Avropa musiqi təhsili sisteminin və ifaçılıq formalarının tətbiqi sayəsində milli musiqi yaradıcılığı və ifaçılığında yeni janrların, üslubların mənimsənilməsi qeyd olunmalıdır.

Bu illərdə Üzeyir Hacıbəylinin öz həmfikirləri ilə birlikdə dövrün reallıqlarından çıxış edərək, fəaliyyətini genişləndirdiyini və təhsil müəssisələrinin, mu-

siqi kollektivlərinin yaradılmasında necə böyük xidmətləri olduğunu görürük. Azərbaycan Dövlət Konservatoriyasının, Türk Musiqi Məktəbinin və digər musiqi təhsili ocaqlarının yaradılması musiqinin müxtəlif sahələrində çalışan, mədəniyyətin tərəqqisinə xidmət edən mütəxəssislərin, milli musiqiçi kadrların hazırlanması məqsədini daşıyırdı.

Azərbaycan Dövlət Opera və Balet Teatrının, Azərbaycan Dövlət Filarmoniyasının nəzdində daimi fəaliyyət göstərən simfonik orkestrin, xor kollektivinin təşkili də ilk növbədə kadr hazırlığını tələb edirdi. Ona görə bu proseslər qarşılıqlı əlaqəli surətdə gedirdi.

Üzeyir Hacıbəyli bu sahədə də geniş fəaliyyət göstərmişdir. Belə ki, onun əvəzsiz təşkilatçılıq istedadı sayəsində yuxarıda adı çəkilən kollektivlər yaradılmışdır. Ü.Hacıbəyli bu musiqi kollektivlərinin ilk bədii rəhbəri və dirijoru olmuşdur (130).

1920-ci illərdən Azərbaycan Dövlət Opera və Balet Teatrının (Mayılov teatrının binasında), Azərbaycan Dövlət Musiqili Komediya Teatrının (Tağıyev teatrının binasında) müstəqil olaraq fəaliyyət göstərməsi burada musiqi rəhbəri kimi dirijorun rolunu önə çəkdi. Həmin dövrlərdən də hər bir musiqili teatrın spesifikasına uyğun olaraq, dirijorlar yetişməyə başladı. Azərbaycan Dövlət Opera və Balet Teatrında Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Niyazi və başqaları, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Süleyman Ələsgərov, Kamal Abbasov, Tale Qəniyev və b. dirijor kimi fəaliyyət göstərmişlər.

Beləliklə, araşdırmamıza yekun vuraraq qeyd edək ki, XX yüzillik Azərbaycan musiqi mədəniyyətində keyfiyyətcə yeni bir mərhələ olmuşdur. Şərqdə ilk simfonik orkestr, ilk çalğı alətləri orkestri, opera və balet teatrı və digər kollektivlər məhz Azərbaycanda yaranmışdır. Eyni zamanda, bu sahələrin inkişafı ilə bağlı olaraq, opera-simfonik, xor dirijorluğu, eləcə də xalq çalğı alətləri orkestri üzrə dirijorluq sahələri inkişaf etmiş, görkəmli dirijorlar nəsli yaranmışdır. Bütün bu tarixi-mədəni proseslərin Şərq və Qərb musiqi ənənələrinin qovuşması kontekstində araşdırılması heç şübhəsiz ki, böyük maraq kəsb edir.

**Ədəbiyyat siyahısı:**

1. Dilbazi M.X. Baкının musiqi həyatı (XIX əsrin iкinci yarısı-XX əsrin əvvəlləri). B.: 2007. 255 s.
2. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları (toplayanı və tərtib edəni, ön sözün, qeydlərin, lüğət və adlar göstəricisinin müəllifi F.Əliyeva). III кitab, 1918-1920-ci illər. B.: Nurlan, 2005. 450 s.
3. Абасова Э.А. Узеир Гаджибеков. Путь жизни и творчества. Б.: Элм, 1985. 200с.

**Мехрибан Касимова**

**КУЛЬТУРНО-ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ ВОЗНИКНОВЕНИЯ ДИРИЖЕРСКОГО ИСКУССТВА В АЗЕРБАЙДЖАНЕ**

**Резюме:** Возникновение дирижерского искусства в Азербайджане относится к началу XX века. В статье освещается музыкальная культура первых десятилетий прошлого столетия, а также анализируются основные направления развития дирижерского искусства в Азербайджане. Автор осо- бенно подчеркивает роль У. Гаджибейли в этом направлении.

**Ключевые слова:** дирижерское искусство, У. Гаджибейли, М. Маго-маев, хоровая капелла, оркестр народных инструментов, культурно-истори-ческий контекст.

**Mekhriban Gasimova**

**HISTORICAL-CULTURAL CONTEXT OF CONDUCTING ART IN AZERBAIJAN**

**Summary:** The art of conducting in Azerbaijan was formed in the early twentieth century. The article highlights the musical culture of the first decades of the last century and the development of conducting art in Azerbaijan. It is noted that in the development of conducting art in Azerbaijan, U. Hajibeyli had exceptional services.

**Key words:** the art of conducting, U. Hajibeyli, M. Magomayev, choir chapel, orchestra of folk instruments, historical-cultural context

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**